# Müxtəlif səpkili tədbirlər

Sumqayıt RMİ Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin şagirdi Nigar Mustafayeva Bakıda keçirilən "Payız əfsanələri - 2021" incəsənət müsabiqəsində fortepiano üzrə 1-ci yerə layiq görülüb.

Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və idarənin əməkdaşları Vətən müharibəsi şəhidləri Elzamin Tağıyev və Fəqan Zalovun anım mərasimlərində iştirak ediblər.

Kürdəmir rayon Uşaq incəsənət məktəbinin şagirdləri Qələbəmizə həsr olunmuş "Azərbaycanın Zəfəri" adlı respublika festivalında mükafat qazanıblar. Məktəbin xor kollektivi II, xoreoqrafiya kollektivi isə III yerə layiq görülüb.

Şəmkir RMİ Şəmkir rayon MKS-nin oxu zalında "Dədə Ələsgər ocağı" başlığı altında tədbir keçirilib. Aşıq Ələsgərin 200 illiyi münasibətilə təşkil olunan tədbirdə görkəmli saz-söz ustadının zəngin yaradıcılığından bəhs edilib.

Mədəniyyət.- 2021.- 12 noyabr.- S.4.